





# Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin salınması qardaşlıq nümunəsidir

**(əvvəli 1-ci səhifədə)**

Faciə baş verən andan etibarən türk xalqı öz əzmini və gücünü nümayiş etdirdi. İlk yardımlardan tutmuş zəlzələ baş verən bölgələrdə həyata keçirilən xilasetmə və bərpa işlərində bütün xalq səfərbər oldu. Hadisədən bir müddət sonra başlanan tikinti-bərpa işləri artıq yekunlaşmaq üzrədir. Fəlakət zonasında bütün kəndlərin 2025-ci ilin sonunadək bərpa ediləcəyi gözlənilir. Təkcə Kahramanmaraş vilayətində bu günə kimi 345 kənd bərpa edilərək 15 min ev tikilib.

On minlərlə insanın həyatına son qoyan dəhşətli zəlzələ Azərbaycanı da sarsıtdı. Hadisənin baş verdiyi ilk dəqiqələrdə dövlətimiz və xalqımız heç bir yardım çağırışını gözləmədən öz qardaşlıq borcunu yerinə yetirdi. İlk köməyə gəldiyi kimi, bölgəni son tərk edən də Azərbaycan oldu. Azərbaycan xalqı ayağa qalxıb, köməyini əsirgəmədi. Azərbaycan Prezidentinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubunda qeyd edilirdi: "Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi. Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildiririk". Dövlətimizin başçısı faciə ilə əlaqədar həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə dövləti və xalqına şəxsən öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib, yaralananlara şəfa diləyib. Həmçinin zəlzələnin nəticələrinin tezliklə aradan qaldırılmasını arzulayıb.

Faciənin baş verdiyi gün Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri Türkiyəyə yola düşüb. Bir gün sonra isə ilkin olaraq mobil səhra hospitalı və 41 nəfərdən ibarət peşəkar tibbi və qeyri-tibbi heyət qardaş ölkəyə göndərilib. Ardınca isə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi məqsədilə çadırlar, qızdırıcılar, mobil səhra hospitalı üçün 3 ədəd konteyner çatdırılıb. Birinci vitse-prezident Mehriban Əliyevanın göstərişi ilə Heydər Əliyev Fondu tərəfindən Türkiyənin zəlzələ bölgəsinə humanitar yardımlar yola salınıb. Fondun "Regional İnkişaf" İctimai Birliyi (RİİB) Türkiyənin ölkəmizdəki səfirliyinin zəlzələ bölgəsinə humanitar yardım göstərilməsi məqsədilə Azərbaycan vətəndaşlarına çağırışına qoşularaq qardaş ölkəyə humanitar yardım kampaniyasına start verib. Bütün Azərbaycan xalqının qoşulduğu kampaniya dünya mətbuatının gündəminə çevrilib. Bu qardaşlıq dəstəyi Türkiyə dövləti və cəmiyyəti tərəfindən yüksək qiymətləndirilib. Ölkə başçısı Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə hərtərəfli dəstəyə görə təşəkkürünü bildirib: "Biz necə Qarabağ müharibəsində qardaşlarımızın yanında olduqsa, Türkiyədəki fəlakətdə də İlham qardaşım bütün komandası ilə bizim yanımızda yer aldı".






Əlbəttə ki, qardaş ölkədə baş vermiş faciənin fəsadlarının aradan qaldırılmasında Azərbaycanın ilk olaraq köməyə çatması təbiidir. Ulu öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı özünü təsdiq etdi. Zəlzələnin baş verdiyi Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin yaradılması ölkəmizin Türkiyəyə qardaşlıq dəstəyinin daha bir nümunəsidir. Layihə 100 milyon dollarlıq tikinti işlərini əhatə edir. "Azərbaycan və Türkiyə arasında Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikintisi barədə əməkdaşlıq haqqında" saziş 2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində imzalanıb. Sənədi Azərbaycan tərəfdən Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev, Türkiyə tərəfdən isə ətraf, şəhərsalma və iqlim dəyişikliyi naziri Mehmet Özhaseki imzalayıblar. Türkiyə dövlət başçısı Rəcəb Tayyib Ərdoğan isə noyabrın 11-də sazişi təsdiqləyib.

"Azərbaycan" məhəlləsinin baş planı üzrə 7, 8, 11 və 12-ci kvartallarının tikintisi yekunlaşmaq üzrədir, demək olar ki, işlərin 90 faizi başa çatıb. Məlumatlara görə, 4 kvartalda 26 yaşayış binası yerləşir. 4 mərtəbəli binalarda ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib. Onu da qeyd etmək yerinə düşər ki, məhəllədə sadəcə yaşayış binaları deyil, həmçinin məktəblər, uşaq bağçaları və digər iaşə obyektləri də tikilib. İşlər yüksək səviyyədə davam edir, eyni zamanda "Azərbaycan" məhəlləsində yerləşəcək mədəniyyət mərkəzinin də layihələndirmə işləri Türkiyə Respublikasının səlahiyyətli qurumu tərəfindən tamamlanmaq üzrədir. Layihə hazır olduqdan sonra qısa zaman ərzində mədəniyyət mərkəzinin və yeni yaşayış binalarının tikintisinin həyata keçirilməsi işlərinə başlanılacaq.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına əsasən zəlzələnin dağıtdığı Kahramanmaraş vilayətində yeni yaşayış məhəlləsi "Azərbaycan" adlandırılıb. Layihənin gerçəkləşməsi üzrə Azərbaycanın icraçı qurumu qismində MİDA fəaliyyət göstərir.

Ötən il sentyabr ayının 11-də "Azərbaycan" məhəlləsində MİDA tərəfindən inşa edilən Heydər Əliyev adına ibtidai məktəbin və uşaq bağçasının açılışı baş tutub.

Verilən məlumatlara görə, ümumilikdə, 320 hektar ərazini əhatə edən layihədə 1 323 yaşayış evi və 799 iş yeri daxil olmaqla cəmi 2 122 bina inşa edilib. Həmçinin ərazidə məskunlaşacaq sakinlərin iş yerləri ilə təmin olunması məqsədilə yaşayış binalarında 764 qeyri-yaşayış (ticarət) obyekti istifadəyə veriləcək. "Eyni zamanda məhəllədə parkla birlikdə ümumilikdə 14 hektar yaşıllıq zonası salınıb. Sahəsi 3,5 hektar olacaq parkda sakinlərin istirahəti üçün hər cür şərait yaradılıb. Hər zaman olduğu kimi, bu gün də Mustafa Kamal Atatürkün *"Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir"* kəlamı həm Türkiyədə, həm də Azərbaycanda tarixi münasibətlərin perspektivlərini dəqiq ifadə edən mükəmməl düstur kimi qəbul edilir.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**